# İSTEDAD, ZƏHMƏT, BİR DƏ PEŞƏKARLIQ

**Çalışdığı müddət ərzində öz fədakar zəhməti ilə nümunə göstərmiş insan əgər böyük fəxrlə, qürur hissi ilə təqaüdə yola salınırsa, bu faktın özü işgüzarlığın, vətənpərvərliyin ən yaxşı göstəricisidir. Söylədiyimiz bu fikir ixtisasca həkim olan və uzun illər ədliyyə orqanlarında çalışmış yazıçı-publisist Əlisəfa Azayevin də timsalında özünü parlaq şəkildə göstərməkdədir.**

Əlisəfa Soltan oğlu Azayev 1 iyul 1951-ci ildə Kürdəmir rayonunda Ana Kürün sahilində yerləşən Qaramahmudlu kəndində dünyaya göz açmışdır. İbtidai sinfi öz doğma kəndlərində, səkkizilliyi qonşu Ərəbxana kəndində oxumuş, orta məktəbi isə öz kəndlərindən xeyli aralıda olan Mollakənd kəndində bitirmişdir. Sonralar isə Şamaxıdakı Pedaqoji texnikum və Azərbaycan Dövlət niversitetinin hüquq fakültəsi...

Öz ixtisası üzrə bir müddət Kürdəmirdə müxtəlif vəzifələrdə çalışmış, özünü daim nümunəvi bir kadr kimi göstərmişdir. O, uşaqlıq və yeniyetmə çağlarından ədəbi-bədii yaradıcılığa meylli olmuş, ilk vaxtlar öz maraqlı yazıları ilə rayon qəzeti səhifələrində çıxış etmiş, oxucuların rəğbətini qazanmışdır.

Əlisəfa müəllim 21 il dövlət Notariat kontorunun dövlət notariusu vəzifəsində çalışmış, işlədiyi müddət ərzində bir dəfə də olsun ərizə-şikayət yaratmamış, heç bir məhkəmə mübahisəsi olmamışdır. O, uzun illər Siyəzən rayonunda dövlət notariusu vəzifəsində çalışarkən, eyni zamanda qonşu Xızı və Şabran rayonlarında dövlət notariat kontorlarını, həmçinin Kürdəmir və Siyəzən rayonlarında xalq hakimlərini əvəzləyərək, xeyli müddət həmin ərazilərdə məhkəmələrə sədr etməklə yüzlərlə mülki və cinayət işlərinə nəticə vermişdir.

Ədliyyə orqanlarında uzun illər səmərəli fəaliyyət göstərən Əlisəfa Azayev bu günlərdə öz uğurları ilə təqaüdə yola salınmışdır. Bu münasibətlə keçirilən tədbir maraqlı və yaddaqalan olmaqla Əlisəfa müəllimin həyat və əmək tərcümeyi-halında xüsusi yer tutur.

**Azərbaycan Respublikasının Ədliyyə Naziri Fikrət Məmmədovun imzaladığı 1 iyul 2016-cı il tarixli əmrdə deyilir: "Siyəzən Dövlət Notariat Kontorunun Dövlət Notariusu Ədliyyə müşaviri Əlisəfa Soltan oğlu Azayev Ədliyyə orqanlarında uzunmüddətli səmərəli işinə, yaradıcılıq fəaliyyətinə görə və anadan olmasının 65 illik yubileyi münasibətilə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 28.1.8-ci maddəsinə müvafiq olaraq "Döş nişanı" ilə təltif edilsin".**

Azərbaycan Yazıçılar Birliyinin yazıçı-publisist Əlisəfa Azayevə ünvanladığı məktubda oxuyuruq: **"Hörmətli Əlisəfa müəllim! Sizi - istedadlı yazıçımızı 65 yaşınızın tamam olması münasibətilə təbrik edirik. Siz ədəbi yaradıcılığa ötən əsrin 70-ci illərində başlamısınız. Respublika mətbuatında vaxtaşırı hekayələriniz dərc olunurdu. "Yeddi il sonra" adlı ilk kitabınız 1979-cu ildə "Gənclik" nəşriyyatında çapdan çıxmışdır. Daha sonra "Çin qızılgülü" kitabınız oxucuların ixtiyarına verilmişdir. Həyatı aydın, süjeti ifadəli dili ilə seçilən əsərləriniz maraqla oxunur. Hekayə və povestlərinizin çoxu macəra-dedektiv janrında yazılmışdır. Konfliktlərin əsasını ağır cinayətlərin açılması ilə həqiqətin üzə çıxarılması təşkil edir. İstintaq prosesi ailə-məişət səhnələri ilə verilir və insan münasibətləri ustalıqla olunur. Əsərləriniz zəngin müşahidə və həyat materialları əsasında yazılmışdır, haqq-ədalət, düzlük uğrunda mübarizə ruhu, yüksək əxlaqi keyfiyyətlər təlqin edir. "Gözlənilməz hadisə", "Sirli qətl", "Amansız qatil", "Qürbət ellərdə", "Prokuror qızı", "Bayıl məhbusu", "Sahildə qətl", "Vahimə" povestləriniz maraqla qarşılanmışdır.**

**Dağlıq Qarabağ münaqişəsi bir qələm sahibi kimi sizi həmişə narahat edir. Bu mövzuda mətbuatda vaxtaşırı yazılarınız dərc edilir. "Kürdəmir şəhidləri", "Əsgər anası", "Qürbət ellərdə", "Qatarda hadisə", "İstintaq sirri" kitablarınız işıq üzü görmüşdür. Xalqımızın qəhrəman övladlarına həsr edilmiş neçə-neçə əsərləriniz vardır.**

**Hörmətli Əlisəfa müəllim! Sizi ad gününüz münasibətilə təbrik edir, sizə uzun ömür, can sağlığı, yaradıcılıq uğurları arzulayırıq.**

**Azərbaycan Yazıçılar Birliyi**
**5 iyul 2016-cı il**



Azərbaycan Yazıçılar Birliyinin katibi, Pen klubun prezidenti, xalq yazıçısı Çingiz Abdullayev Əlisəfa Azayevə ünvanladığı məktubda yazır:

Hörmətli Əlisəfa müəllim, siz Azərbaycan Yazıçılar Birliyi və Pen klubun İsmayıl bəy Qutqaşınlı adına mükafata layiq görülmüsünüz. Mükafat sizə oktyabrda təqdim ediləcəkdir. Hörmətlə Çingiz Abdullayev.

Həyat həqiqətlərinin ədəbi-bədii ifadəsi yazıçı Əlisəfa Azayevin əsərlərində öz geniş əksini tapmışdır. Bu ondan irəli gəlir ki, Əlisəfa müəllim əsl həyat məktəbi keçmişdir. Əlisəfa müəllim həyatdan ədəbiyyata gələn yazıçılardandır. Buna görə də onun qələmə aldığı mövzular daha maraqlı, daha məzmunlu və əhatəli olur.

Əlisəfa Azayev özünün ilk bədii yazı nümunələri ilə hələ pedaqoji məktəbi bitirib sinif müəllimi kimi əmək fəaliyyətinə başladığı ilk vaxtlarda diqqəti cəlb etmişdi. Bu, mərhum yazıçı Əlfi Qasımovun gənc Əlisəfanın ədəbi yazılarına göstərdiyi maraqla bağlı idi. Yazıçı Əlfi Qasımov 1974-cü ildə "Azərbaycan gəncləri" qəzetində Kürdəmirin ucqar bir kəndində müəllim işləyən Əlisəfa Azayev haqqında "Uğur olsun" sərlövhəli bir yazı dərc etdirmişdi. Bu, yazıçılığa kövrək addımlar atan Əlisıfa üçün əsl diqqət və qayğı idi. Tanınmış, istedadlı bir yazıçı tərəfindən göstərilən bu etimad Əlisəfanı ruhlandırmaqla onun yaradıcılıq yoluna bir aydınlıq bəxş elədi. Qayğıkeşliklə edilən bu xeyir-duadan sonra Əlisəfanın istedadlı qələmindən çıxan irili-xırdalı hekayələr respublikanın müxtəlif qəzet və jurnallarında dərc olunmağa başladı.

Ədəbi yaradıcılığa ilk addımlar atdığı o vaxtlarda Əlisəfa Azayev Kürdəmir rayonunun Ərəbxana kənd orta məktəbində müəllim işləyirdi. Qiyabi Yolla Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olub hüquqşünaslıq ixtisasına yiyələndi. Belə bir ixtisasa yiyələnməsi və bu sahədə çalışması onun ədəbi-bədii yaradıcılığına yeni-yeni mövzular verdi. İstər-istəməz gənc bir yazıçı kimi dedektiv mövzulara meyilləndi. Bu janr Əlisəfa Azayevin yaradıcılığından qırmızı bir xətt kimi keçir.

İlk kitabını ("Yeddi il sonra") 37 il bundan əvvəl oxuculara təqdim edən Əlisəfa Azayev ta o vaxtlardan bu günə kimi öz ədəbi yaradıcılığına xüsusi maraq göstərdiyi dedektiv janrına bu günə kimi sadiq qalmışdır. Keçən bu müddət Əlisəfa müəllim tərəfindən 25 addan çox kitabın uğurla ərsəyə gətirilməsi deməkdir.

"Yeddi il sonra" kitabı ilə ədəbiyyata gələn Əlisəfa Azayev "Çin qızılgülü", "Gecə yarı sui-qəsd", "Sirli qətl", "Əsgər anası", "Qürbət ellərdə", "Prokurorun qızı", "Qatarda hadisə", "Qanlı gündəlik", "Günahsız məhbus", "Gizli əməliyyat", "Kapitanın sərguzəştləri" və s. kitabları ilə oxucuların dərin marağına və rəğbətinə səbəb olmuşdur.

Əlisəfa Azayev öz yaradıcılığında Qarabağ mövzusuna da geniş yer vermişdir ki, yuxarıda biz onlardan bir neçəsinin adını çəkdik.

Əlisəfa Azayevin yaradıcılıq uğurlarını sadalayarkən bunların fövqündə duran bir məqamı yada salmaq yerinə düşərdi. Tanınmış ədəbiyyatşünas alim, tənqidçi professor Qulu Xəlilov 1984-cü ildə Əlisəfa müəllimin hekayələri haqqında öz fikrini belə ifadə etmişdi: "Əlisəfa Azayev həyatdan ədəbiyyata gələn müəlliflərdəndir. Onun kitablarını müntəzəm çap etmək gərəkdir.

Məntiqi ardıcıllığa söykənən bu fikir Əlisəfa Azayevin yaradıcılıq uğurlarında özünü çox parlaq şəkildə doğrultdu.

Bu və digər faktlar barədə yazıçı Əlisəfa Azayevin bu yaxınlarda Kürdəmir rayonunda oxucularla keçirilmiş görüşündə ətraflı bəhs olunmuşdur.

Kürdəmir Rayon İcra hakimiyyətinin dəstəyi, Azərbaycan MEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi "Aran" regional şöbəsinin təşkilatçılığı ilə keçirilən görüşdə söylənilən fikirlər yazıçı-hüquqşünas Əlisəfa Azayevin yaradıcılıq aləminə daha bir aydınlıq gətirmişdir. Bu baxımdan akademik Rafael Hüseynovun, xalq yazıçısı Çingiz Abdullayevin, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadırqızının, yazıçı-publisistlər Mustafa Çəmənlinin, Flora Xəlilzadənin çıxışları maraq kəsb etmişdir. Görüşdə həmçinin şair Kərəm Kürqıraqlı, müəllim-şair Abduləziz Xanəhmədoğlu, Əlisəfa Azayevə həsr etdikləri şeirləri oxumuşlar. Görüşdə iştirak edən ziyalılardan Mehriban Məmmədova, Ağa Zeynallı, İradə Mahmudova və başqaları da yazıçı Əlisəfa Azayevin yaradıcılıq xüsusiyyətlərindən danışmışlar.

Qeyd edilmişdir ki, əsasən dedektiv mövzularda yazan Əlisəfa Azayevin indiyədək 26 adda kitabı 100 mindən artıq tirajla çap olunmuşdur.

Yazıçı ilə görüş mərasimində məktəblilərin Əlisəfa Azayevin əsərləri əsasında hazırladıqları kompozisiya və eləcə də muğam ifaçılarının çıxışları maraqla qarşılanmışdır.

Yazıçı Əlisəfa Azayev oxucuların çoxsaylı suallarını maraqlı fikirləri ilə cavablandırmışdır.

Görüşdə iştirak edən Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli rayon rəhbərliyi adından yazıçı Əlisəfa Azayevi təbrik etmiş, ona yaradıcılıq uğurları arzulamışdır.

**Tofiq Abdullayev,**
**jurnalist**

Ədalət.-2016.-29 dekabr.-S.3.